ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# Təhsil tariximizdə izi qalmış pedaqoq



Arxiv sənədləri təsdiq edir ki, Mina xanım Aslanova həyatını müxtəlif rus-tatar məktəblərində gənc nəslin təhsil alması işinə sərf etmiş və bu yolda fədakarcasına çalışmışdır

Azərbaycanda təhsilin yayılmasında, savadsızlığın aradan qaldırılmasında, qadınların təhsilə cəlb edilməsində rolu və xidmətləri olmuş pedaqoqlar var ki, onların həyat və fəaliyyəti, təəssüflər olsun ki, bu günədək öyrənilməmiş və ya araşdırılmamışdır. Azərbaycanda təhsil və mədəniyyətin inkişaf tarixinə xüsusi diqqət yetirən "Kaspi" qəzetinin 31 iyul 2021-ci il tarixli buraxılışında dərc edilmiş " Tanımadığımız Nigar..." sərlövhəli məqaləm tanınmış pedaqoq Nigar xanım Səfərəli bəy qızı Vəlibəyovaya həsr edilmişdir. Bu dəfə isə Azərbaycanın təhsil tarixində izi qalmış qadın pedaqoqlardan biri - Mina xanım Aslanovanın həyat və fəaliyyəti haqda oxuculara məlumat verəcəyəm.



### ATADAN ÖTÜRÜLƏN MİSSİYA

Mina xanım Aslanova haqqında məlumatları yalnız Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin "Xalq məktəblərinin Bakı-Dağıstan Direksiyası" (f.309) fondundan aşkar etmək mümkün olmuşdur. Mina xanım Aslanovanın atası Zəkəriyyə bəy Mirzə Mehdiqulu bəy oğlu Aslanov (1858-1938) öz dövrünün tanınmış pedaqoqlarından biri olmuşdur. Zəkəriyyə bəy Mirzə Mehdiqulu bəy oğlu 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşa şəhər məktəbini bitirdikdən sonra 1879-cu ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Azərbaycan bölməsinə daxil olmuş və 1885-ci ildə Seminariyada təhsilini müvəffəqiyyətlə başa vuraraq Şuşa qəzasının Gülablı və Ağdam Zemstvo məktəbində müəllim işləmişdir. Zəkəriyyə bəy Aslanov sonralar Bakı şəhərinə köçmüş, 1912-1915-ci illərdə 4-cü rus-müsəlman məktəbində dərs demişdir. Zəkəriyyə bəy 1906-1907-ci illərdə çağırılmış Qafqaz müəllimləri qurultayının iştirakçısı olmuşdur.

### 16 YAŞDAN BAŞLANAN XİDMƏT

Mina xanım Aslanova 1898-ci ildə dünyaya göz açmışdır. 1912-ci ildə Bakı qadın rus-tatar məktəbinin tam kursunu bitirmişdir. Bakı şəhər Duması nəzdindəki Məktəb komissiyası sədrinin Bakı Quberniyası və Dağıstan Vilayətinin Xalq Məktəblərinin direktoru A.S.Tixorjevskiyə ünvanladığı 4 yanvar 1913-cü il tarixli məktubunda qeyd edilirdi ki, Bakı I rus-tatar məktəbində müvəqqəti vakant yerini tutmuş Mina xanım Aslanova Bakı şəhər Duması nəzdindəki Məktəb komissiyasının 19 dekabr 1912-ci il tarixli qərarı ilə şəriət müəlliməsi vəzifəsinə seçilmişdir. Həmin dövrdə Mina xanım 16 yaşlı şiə təriqətli azərbaycanlı, müsəlman qız idi. Mina xanım Bakı qadın rus-tatar məktəbinin tam kursunu bitirməklə yanaşı, 1912-ci ildə görkəmli maarifpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yaratdığı Bakı qadın rus-tatar məktəbini də bitirərək, 1127 saylı şəhadətnamə əldə etmişdir.

## Azərbaycan dili və şəriət fənni

Bakı şəhər Duması nəzdindəki Məktəb komissiyası sədrinin Bakı Quberniyası və Dağıstan Vilayətinin Xalq Məktəblərinin direktoru A.S.Tixorjevskiyə ünvanladığı 1 mart 1913-cü il tarixli məktubda qeyd edilirdi ki, 16 fevral 1913-cü ildə Bakı şəhər Duması nəzdindəki Məktəb komissiyasının qərarı ilə Bakı I rus-tatar məktəbinə şəriət müəlliməsi vəzifəsinə seçilmiş Mina xanım Aslanovaya Bakı İmperator Aleksandr III adına kişi gimnaziyasının Pedaqoji Şurası tərəfindən Qafqaz Tədris Dairəsinin aşağı ibtidai məktəblərində Azərbaycan dili müəlliməsi vəzifəsini təsdiq edən 199 saylı şəhadətnamə verilmişdir. Arxiv sənədləri təsdiq edir ki, Mina xanım Aslanova yalnız 10-cu rus-tatar məktəbində şəriət müəlliməsi vəzifəsini icra etməmişdir. O, müxtəlif vaxtlarda Azərbaycan dilindən dərs demək üçün digər məktəblərə də ezam edilmişdir.

### AŞQABAD SƏFƏRİ ÜÇÜN İCAZƏ VƏ...

Mina xanım Aslanova Bakı şəhərində keçmiş Spasski (indiki Zərgərpalan küçəsindəki 103 saylı evdə yaşamışdı. Bu haqda məlumat Məktəb Komissiyası sədrinin Bakı Quberniyası və Dağıstan Vilayətinin Xalq Məktəblərinin direktoruna ünvanladığı 4 yanvar 1913-cü il tarixli məktubunda qeyd edilirdi. 1916-cı il mayın 16-da Mina xanım Aslanova təxirəsalınmaz ailə işləri ilə əlaqədar Aşqabad şəhərinə getməsinə icazə verilməsi haqqında 2-ci rayon üzrə müfəttiş S.M.Qəniyevə ərizə ilə müraciət etmişdir. Həmin ərizədə Mina xanım Aslanovanın 2-ci rus-tatar məktəbinin deyil, artıq 3-cü rus-tatar məktəbinin müəllimi olduğu qeyd edilirdi. Arxiv sənədləri təsdiq edir ki, Mina xanım Aslanova həyatını müxtəlif rus-tatar məktəblərində gənc nəslin təhsil alması işinə sərf etmiş və bu yolda fədakarcasına çalışmışdır. Təəssüflər olsun ki, Mina xanım Aslanovanın sonrakı həyat tarixi haqqında hər hansı bir digər sənəd onun şəxsi işində aşkar edilməmişdir.

## ATASI VƏ QARDAŞI repressiya qurbanı olubsa...

Mina xanımın ailə həyatı qurub-qurmadığı, eləcə də neçənci ildə vəfat etdiyi haqqında hər hansı bir məlumat aşkar etmək mümkün olmadı. Güman etmək olar ki, tanınmış pedaqoq repressiyaya məruz qalmışdır. Çünki onun atası, Qori Müəllimlər Seminariyasının məzunu Zəkəriyyə bəy Mirzə Mehdiqulu bəy oğlu Aslanov 1938-ci ildə repressiyanın qurbanı olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, onun oğlu, yəni Mina xanımın qardaşı Əmir bəy digər tanınmış pedaqoq Nigar xanım Vəlibəyovanın həyat yoldaşı olmuşdur. Əmir bəy də 1938-ci ilin repressiya qurbanları arasındadır.

### FƏALİYYƏTLƏRİ TƏDQİQ EDİLMƏLİDİR Kİ...

Azərbaycan Respublikasının təhsil tarixində izi qalmış hər bir pedaqoq xalqımız üçün olduqca dəyərli və əzizdir. Çünki onların səyləri nəticəsində Azərbaycanda savadsızlığın aradan qaldırılması sahəsində mühüm işlər görülmüşdür. Bu pedaqoqların fəaliyyəti mütəmadi olaraq tədqiq edilməlidir ki, belə işıqlı ziyalıların xidməti unudulmasın.

**RAFİQ SƏFƏROV**
Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Baş məsləhətçisi